

# 2024-cü ildə əmək, məşğulluq, sosial müdafiə sahələrində növbəti uğurlar əldə olunub

*Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyev ölkəmizin sosial inkişaf strategiyasının müəllifi olmaqla, xalqın rifah səviyyəsinin yüksəldilməsi, etibarlı sosial müdafiə sisteminin qurulması istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasını təmin etmişdir. Ulu Öndərimizin müdrik və uzaqgörən siyasətini yüksək səviyyədə davam etdirərək, ölkəmizin bütün sahələrdə dinamik inkişafını təmin edən, Azərbaycanı möhtəşəm Zəfər zirvəsinə yüksəldən Prezident cənab İlham Əliyevin siyasətinin ana xəttini vətəndaş rifahının təminatı təşkil edir.*

Dövlətimizin başçısının imzaladığı Fərman və sərəncamlarla son 5 ildə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunub və bu islahatlar üçün 7 milyard manat əlavə illik vəsait ayrılıb. Nəticədə minimum pensiyada 2,5 dəfə, orta aylıq pensiyada 2,4 dəfə, müavinət və təqaüd ödənişlərində 5 dəfə, ünvanlı yardımın orta aylıq məbləğində 2,7 dəfə, minimum əməkhaqqında 2,7 dəfə, orta aylıq əməkhaqqında 2 dəfəyə yaxın, median əməkhaqqında 2,2 dəfə, əməkhaqqı fondunda 3 dəfə artıma nail olunub.

Ölkəmizdə aparılan sosial islahatların bir istiqaməti də pensiyaların davamlı artımının təmin edilməsidir. 2024-cü ilin əvvəlindən də pensiyalar 2023-cü il üzrə orta aylıq əməkhaqqının illik artım tempinə uyğun olaraq 11,2 faiz indeksləşdirilərək artırılıb və bu artım 1,1 milyon pensiyaçını əhatə edib. Həmçinin fərdi hesablardakı pensiya kapitalları da ilin əvvəlindən 8,8 faiz indeksləşdirilərək artırılıb. Onu da qeyd edək ki, 2023-cü ilin əvvəlindən pensiya artımı sahəsində vahid indeksasiya metoduna keçilib. Bu da hər il indeksləşdirmə əsasında pensiya artımının həmin vaxtdan bütün növ pensiyalara şamil olunmasına imkan verib.

Pensiyaların orta aylıq məbləğində 2024-cü ildə 13 faiz artıma nail olunub. Bu məbləğ 494 manata, yaşa görə əmək pensiyalarının orta məbləği isə 527 manata çatıb. 2025-ci ildə isə pensiyaların orta aylıq məbləğinin 535 manata, yaşa görə əmək pensiyalarının orta məbləğinin 571 manata çatacağı proqnozlaşdırılır. Pensiyalar üzrə ödənilən vəsaitin məbləği də artmaqda davam edir, 2024-cü ildə də pensiya ödənişlərinə əvvəlki ilə nisbətən 13,4 faiz çox olmaqla 6,5 mlrd. manat yönəldilib. Ümumilikdə, pensiyalar üzrə ayrılan vəsaitin məbləği 2025-ci il üçün 7,2 mlrd. manat nəzərdə tutulub ki, bu da 2019-cu ilə nisbətən həmin vəsaitin 2 dəfəyə yaxın artdığını göstərir.

Həmçinin 2024-cü ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 515 min şəxsin müavinətlə, 400 mindən çox şəxsin Prezidentin aylıq təqaüdü ilə təminatı həyata keçirilib. Müavinətlər üzrə 1,1 mlrd. manat, təqaüdlər üzrə 700 mln. manata yaxın vəsait ödənilib. Aparılan islahatların əsas hədəflərindən biri kimi, son illər sosial təminat sisteminin əhatəliliyi də genişləndirilərək, 10 yeni sosial ödəniş növü (müharibə veteranları, I dərəcə əlilliyi olanlara və əlilliyi olan uşaqlara qulluq edənlər, Vətən müharibəsi qəhrəmanları, işləməyən pensiyaçı elmlər doktorları və fəlsəfə doktorları üçün aylıq təqaüd, uşaqları övladlığa və himayəyə götürən şəxslər üçün hər uşağa görə aylıq müavinət) təsis edilib. Eyni zamanda müavinət və Prezidentin aylıq təqaüdü ilə təmin olunanların sayı son 5 ildə 60 faizdən çox artaraq 900 mini ötüb. O cümlədən Prezidentin aylıq təqaüdü ilə təmin edilənlərin sayı 6,7 dəfə artaraq 60 mindən 405 min nəfərə çatıb. Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2,7 mln. şəxs sosial təminat növləri üzrə ödənişlərlə təmin edilir.

## Növbəti sosial islahat paketi

Prezident cənab İlham Əliyevin yeni "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" 23 dekabr 2024-cü il tarixli Sərəncamı ilə növbəti sosial islahat paketi olaraq 2025-ci il yanvarın 1-dən minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılacaq. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub. Həmçinin Nazirlər Kabineti gələn il sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini ölkə Prezidentinə təqdim edəcək, habelə dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə aylıq tarif (vəzifə) maaşlarının minimum aylıq əməkhaqqının artırılmış yeni məbləğinə uyğunlaşdırılmasını təmin edəcək. Qeyd etdiyim növbəti sosial islahat paketi gələn ilin əvvəlindən pensiyaların indeksləşdirilərək artırılması da nəzərə alınmaqla ümumən 3 milyon insana yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin artmasına imkan verəcək. Həmin artımlar üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılacaq.

2019-cu ilin mayın 9-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyi və ilk DOST mərkəzinin açılışı olub. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası 15 istiqamət üzrə 160 sosial xidmətin "bir pəncərə"dən, şəffaf və operativ, vətəndaş məmnunluğu və rahatlığı prinsipi əsasında təqdim olunmasına imkan yaradıb. Ötən dövrdə artıq Bakı şəhəri, Abşeron və Bərdə rayonlarında olmaqla 7 DOST Mərkəzi, həmçinin Zəngilanın Ağalı kəndində "Smart DOST" xidmət məntəqəsi, 2024-cü ilin iyun ayında Qarabağ Regional DOST Mərkəzinin Şuşada filialı açılıb.



DOST mərkəzlərində 2024-cü ildə daha 920 min, ümumən ötən dövrdə 3,2 milyon vətəndaşa xidmət göstərilib və bu xidmətlərdən vətəndaş məmnunluğu 98,4 faizdir. Hazırda Naxçıvan, Quba, Sabirabad, Sumqayıt, Gəncə və Masallıda DOST xidmətləri şəbəkəsinin qurulması üçün layihə, təmir-tikinti işləri aparılır. Ümumilikdə, 17 yeni Regional DOST mərkəzi və ətraf rayonlar üzrə onların ümumilikdə 55 filialı yaradılacaq və bütün ölkə DOST xidmətləri ilə əhatə olunacaq. DOST konsepsiyası 60-dan çox beynəlxalq mükafat və sertifikatla təltif olunub. Onlardan 12-si "Avropa üçün yaxşı təcrübə mükafatı"dır ("Good practice awards of Europe"). DOST təcrübəsini tətbiq etməyə maraq göstərən ölkələrin sayı da daim artır və bu gün DOST artıq dünyada Azərbaycanın yeni brendi kimi tanınır.

## Ünvanlı sosial yardım proqramı

Aztəminatlı ailələrin sosial müdafiəsində mühüm rola malikdir. 2024-cü ildə bu proqramın icrası davam etdirilib və daha 73 min ailənin 330 mindən çox üzvü ünvanlı dövlət sosial yardımı ilə təmin olunub. Hər ailəyə ödənilən ünvanlı yardımın orta aylıq məbləği 2018-2024-cü illərdə 2,7 dəfə artaraq 473 manata çatıb.

Son illər aparılan sosial islahatlar ünvanlı sosial yardım sisteminin təkmilləşdirilməsi, sosial yardıma əlçatanlığın artırılması istiqamətində mühüm addımların atılmasına da imkan verib. Bu istiqamətdə növbəti addım kimi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2024-cü ildə "Ünvanlı yardım" elektron sistemi yenidən qurulub. Nəticədə ünvanlı yardım üçün müraciət edən şəxslərdən bir çox məlumatların, o cümlədən ailə üzvlərinin əməkhaqqı və digər sosial ödənişləri almaları, tələbə, şagird, işsiz, keçmiş məcburi köçkün, hərbi xidmətdə olmaları, əlillik, daşınmaz əmlakı, torpaq pay mülkiyyəti, sahibkarlıq fəaliyyəti, nəqliyyat vasitəsinin olması, kommunal xərclər, telefon nömrələri kimi məlumatların qeyd edilməsi tələb olunmur. Bu məlumatlar artıq müvafiq qurumların informasiya sistemlərindən əldə olunur. Həmçinin ailənin maddi-məişət şəraiti yoxlanarkən abonent və sayğac nömrələri, həyətyanı sahə ilə bağlı məlumatların "Ərizə-bəyannamə"də düzgün qeyd edilmədiyi aşkarlandıqda da həmin məlumatlara operativ qaydada düzəliş edilməsi və müraciətə yenidən baxılması imkanı yaradılıb.

Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə, avtomobillə təminatı tədbirləri 2024-cü ildə də davam edib. Həmin kateqoriyalardan olan vətəndaşlara postmüharibə dövründə 6800, ümumilikdə ötən dövrdə 16 min mənzil və fərdi ev verilib. Habelə müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə postmüharibə dövründə 567, ümumən ötən dövrdə 7,7 min avtomobil verilib.

## Xidmətlərdə elektron texnologiyalar tətbiq olunur

Son illər dövlət sosial xidmətlərinin elektron texnologiyalar üzərində qurulması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən geniş proqram icra olunub və Nazirliyin 160 xidmətindən 145-dən çoxu (90 faizdən çoxu) artıq rəqəmsallaşdırılıb. 30-dan çox e-arayış xidməti, 50-dən çox proaktiv xidmət yaradılıb. Həmçinin 2019-cu ildə ölkənin sosial reyestri olan e-sosial.az portalı, 2020-ci ildə fərdi hesabların e-qaydada proaktiv açılması xidməti, 2022-ci ildə "Əmək və Məşğulluq" altsistemi istifadəyə verilib. 2024-cü ildə Nazirliyin rəqəmsal infrastrukturu üzərindən sorğu, müraciət və xidmət sayı 680 milyon olub. Onu da qeyd edim ki, Nazirliyin rəqəmsal nailiyyətləri, o cümlədən e-sosial.az portalı, "Əmək və Məşğulluq" altsistemi, proaktiv xidmət mexanizmləri çoxsaylı beynəlxalq mükafatlara layiq görülüb.

Əlilliyin qiymətləndirilməsi işləri də davam edir, 2024-cü ildə də 49 min şəxsə əlillik təyin olunub, onlardan 24 mini ilkin, qalanları təkrar əlillik təyin edilənlər olub. Əlillik təyinatından sonra onlara e-sistem üzərindən əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin edilib. Onu da bildirim ki, son illər aparılan islahatlar ölkədə müasir reabilitasiya sisteminin qurulmasına və reabilitasiya sahəsində biopsixososial model əsasında xidmət spektrinin yeni istiqamətlər üzrə xeyli genişlənməsinə, nəticədə reabilitasiya xidməti göstərilən əlilliyi olan şəxslərin illik sayının 7 dəfədən çox artmasına imkan verib. 2024-cü ildə Nazirliyin reabilitasiya müəssisələrində əlilliyi olan 124 min şəxs reabilitasiya xidmətləri ilə təmin edilib, əlilliyi olan 12 mindən çox şəxsə 95,7 min reabilitasiya vasitəsi verilib.

## Məşğulluq

Məşğulluğun təminatı sahəsində də tədbirlər davam etdirilməklə, 2024-cü ildə Nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən daha 160 min şəxs münasib işlərlə təmin edilib, 15 min işsiz şəxs üçün isə peşə hazırlığı kursları təşkil olunub, 17,3 min şəxs üçün özünüməşğulluq proqramının dəstəyi ilə kiçik təsərrüfatlar yaradılıb. Qeyd edim ki, özünüməşğulluq proqramına cəlb edilənlərin illik sayı proqramın icrasına başlandığı 2017-ci ilə nisbətən 15 dəfəyədək artıb. Bu proqrama cəlb olunanların sayı 2025-ci ildə artıq 100 min nəfəri ötəcək.

Böyük Qayıdış proqramı üzrə ərazilərimizə köçürülən sakinlərin aktiv məşğulluq proqramları ilə əhatə olunması tədbirləri 2024-cü ildə də davam etdirilib. Həmin sakinlərdən artıq 4 minədək şəxsin məşğulluğu təmin edilib. Böyük Qayıdış proqramı çərçivəsində doğma yurdlarına qayıdan vətəndaşlar üçün özünüməşğulluq proqramı üzrə yaradılan təsərrüfatların sayı da 145-ə çatıb. İşğaldan azad edilmiş ərazilərdə əmək yarmarkaları davam etdirilib, 2024-cü ildə həmin ərazilərdə daha 6 yarmarka keçirilib.

Əməkhaqqı islahatları, əmək müqavilələrinin sayında artım əməkhaqqı fondunda da davamlı artımla nəticələnir. 2024-cü il ərzində ölkəmizdə əmək müqavilələrinin sayı 80 min və ya 4,4 faiz artıb və hazırda sayı 1,9 milyona yaxındır. Ümumilikdə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 17 mart 2017-ci il tarixli Sərəncamı ilə Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının yaradılmasından sonrakı dövrdə əmək müqavilələrinin sayında 600 mindən çox və 50 faizədək artıma nail olunub. Müsbət məqam kimi, özəl sektorda əmək müqavilələrinin sayında 2 dəfə artım olub.

## Diqqət və qayğı

106 min şəxsə 119 min aylıq sosial ödəniş, 24,4 min şəxsə birdəfəlik ödəmə təyin olunub. Həmin aylıq sosial ödənişlərin də orta hesabla 2 dəfəyədək artırılması təmin edilib. 11 min nəfərə 68,7 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib, müharibə ilə əlaqədar əlilliyi olan 2 249 şəxs 61,7 min reabilitasiya vasitəsi, o cümlədən 490 şəxs 600 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Ümumilikdə, həmin sosial dəstək paketi şəhid ailələri üzvləri və müharibə iştirakçılarından ibarət 130 min şəxsi əhatə edib, onlara 366 min xidmət göstərilib.

Dövlət başçısının tapşırıqlarına uyğun olaraq son illər ölkəmizdə aparılan sosial islahatların uğurları mötəbər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymət alır. 2024-cü ildə nazirlik və qurumları daha 100-dən çox beynəlxalq mükafatla təltif edilib. "ASAN xidmət indeksi" üzrə qiymətləndirmədə 2024-cü ildə də nazirlik ilk yeri tutub.

**Anar ƏLİYEV,**
**əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.**